Ədəbiyyat qəzeti

5 dekabr / 2020

***Hörmətli Kamal müəllim!***

***Azərbaycan Respublikası hamımızın vətənidir, burada yaşayan çoxsaylı millətlərin nümayəndələri Respublikanın Konstitusiyası ilə verilmiş bütün hüquqlara malikdir və bu hüquqlar Dövlət tərəfindən qorunur. Buna misal olaraq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması və geniş miqyasda fəaliyyətinin təşkil olunmasıdır.***

***Multikulturalizm və tolerantlığın həyat tərzinə çevrilməsi, dünya ölkələrinə ixrac edilməsi, tədrisinin təşkili və Azərbaycan vətəndaşlarının milli-mədəni müxtəlifliklərini qiymətləndirərək əməli fəaliyyətin qurulmasında böyük əməyiniz və zəhmətiniz var. Bunu biz, Azərbaycanın ləzgi ictimaiyyətinin nümayəndələri yüksək qiymətləndiririk və rəhbərlik etdiyiniz Mərkəzin fəaliyyətinin Azərbaycanın bütün bölgələrində, o cümlədən Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağ bölgəsində geniş formada qurulmasının təşkilində Sizə cansağlığı və uğurlu günlər arzulayırıq.***

***Yubileyinizi təbrik edirik və 100 il yaşa deyirik!***

***Hörmətlə,***

***İmran RZAYEV,***

*Azərbaycan Respublikası "Samur" Ləzgi Milli Mədəni Mərkəzi ictimai birliyinin sədri*

*27 noyabr 2020-ci il*